# Universal Primer

## Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Penguin Universal Primer akrilik kopolimer əsaslı, sərt hava şəraitinə yüksək dayanıqlılıq göstərən, boya ilə səth arasında yapışdırıcı körpü rolunu oynayan bir astardır. Xüsusi qatlar vasitəsilə əmələ gələn naxışlı boya sistemində istifadə üçün Penguin Pengutex divar örtüyünün astarı kimi nəzərdə tutulmuşdur. İçindəki xüsusi dolğu sayəsində bu sistemdə tutucu bir rol oynayır. Boya sərfini azaldır, səthə asan yayılır və üzərində iri dolğu dənələri görünən mat bir görünüm yaradır.

## İstifadə olunacaq səthlər

Hər növ divar,tavan,məcun,suvaq,beton,alçıpan və betopan kimi iç səthlərdə istifadə oluna bilər.

## Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox |
|---|---|---|
| **Çəkilən qat qalınlığı, quru (µm)** | 33 | 47 |
| **Çəkilən qat qalınlığı, yaş (µm)** | 60 | 85 |
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 16.7 | 11.7 |

## Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Ağ |
| **Qatı maddə miqdarı** | 55±2 (həcmcə) |
| **Sıxlığı (q/ml)** | 1.33±0.02 q/ml |
| **Özlülüyü (25°C) KU** | 110±5 |
| **Parlaqlıq** | Mat |

## Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Səth tempraturu +5-+30$^{o}$C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir. Məhsul ən çox 15% su ilə durulaşdırıla bilər.

.

## İstifadə üsulları

| | |
|---|---|
| **Püskürtmə** | Havasız tapança və ya konvensiyalı tapança istifadə oluna bilər |
| **Fırça** | Uyğundur |
| **Rulo** | Uyğundur |

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **10$^{o}$C** | **23$^{o}$C** | **40$^{o}$C** |
|---|---|---|---|
| **Üst quruma** | 6 saat | 3 saat | 1 saat |

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Universal Primer

## Texniki Məlumat Səhifəsi

| | | | |
|---|---|---|---|
| **Tam (sərt) quruma** | 8 saat | 4 saat | 2 saat |
| **İkinci qatın vurulması, ən az** | 6 saat | 3 saat | 1 saat |

## Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır.

## Qablaşdırılma şəkli

15 lt-lik plastik qablarda istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəngdə rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

S 2 : Uşaqların əli çatdığı yerlərdən uzaq tutun.
S 3 / 7 : Qabı sərin yerdə,ağzı bağlı halda saxlayın.
S 24 / 25 : Göz və dəri ilə təmasdan qoruyun.
S 29 : Kanalizasiyaya atmayın.
S 46 : Udulduğu halda dərhal həkimə müraciət edin, qabı və ya etiketi göstərin.

---

***Qeyd:** "CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az